

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 43 (20.944)

6 mart 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi İyad bin Amin Mədənini qəbul etmişdir.

Dövlətimizin başçısı İyad bin Amin Mədənini İslam Əməkdaşlıq Təşkilatının Baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi. İyad bin Amin Mədəninin yeni vəzifəyə seçildikdən sonra ölkəmizə səfər etməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev bunu əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Ölkəmizin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi İyad bin Amin Mədəni Baş katib seçilərkən Azərbaycanın verdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi.

Görüşdə ölkəmiz ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın daha da genişləndirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı, təşkilata üzv olan ölkələrin iqtisadi, elm, təhsil, mədəniyyət və digər sahələrdə sıx əməkdaşlığının əhəmiyyəti qeyd olundu, beynəlxalq aləmdə baş verən proseslərlə bağlı islam ölkələrinin vahid mövqedən çıxış etmələrinin önəmi vurğulandı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Münxen Təhlükəsizlik Konfransının sədri Volfqanq İşingeri qəbul etmişdir.

Görüşdə Münxen Təhlükəsizlik Konfransının beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi baxımından önəmi vurğulandı, ölkəmizin bu təşkilat ilə uğurla əməkdaşlıq etdiyi bildirildi, beynəlxalq və regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

## Daxili işlər orqanlarında vakant vəzifələrin tutulması üçün test imtahanı keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada muxtar respublikanın daxili işlər orqanlarında vakant yerlərin tutulması məqsədilə elan edilən müsabiqənin test mərhələsi keçirilib.

TQDK-nın Naxçıvan Muxtar Respublikası Regional Bölməsi ilə birgə təşkil edilən və üç mərhələdən ibarət olan test imtahanında vakant yerlərin tutulması üçün 51 namizəd biliyini sınayıb. Namizədlər onlar üçün ayrılmış üç saat ərzində 100 suala cavab verməli olublar. Suallardan 80-i ixtisas biliklərindən, 20-si isə məntiqi təfəkkürün yoxlanılmasına aid test tapşırıqlarından ibarət olub.

Qeyd edək ki, test imtahanında müvəffəqiyyət qazanan namizədlər Daxili İşlər Nazirliyində keçiriləcək müsahibə mərhələsinə buraxılacaqlar. Müsahibəni uğurla başa vurmuş namizədlər muxtar respublikanın daxili işlər orqanlarında müstəntiq, təhqiqatçı, inspektor, post-patrul xidməti taqımının komandiri və digər vəzifələrə təyin ediləcəklər.

## Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı sahəsində Sədərək rayonundakı mövcud vəziyyət müzakirə edilib

*Sədərək Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə seminar keçirilib. Seminarda vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının qanunvericiliyin tələblərinə uyğun aparılması sahəsində rayondakı mövcud vəziyyət müzakirə edilib.*

Tədbiri giriş sözü ilə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq deyib ki, sərhəd bölgəsində inzibati ərazi dairəsi üzrə nümayəndəliklər üçün müasir standartlara uyğun iş şəraiti yaradılıb. Yaradılan şəraitin müqabilində icra nümayəndələri yüksək iş keyfiyyəti nümayiş etdirməli, qanunvericiliyin tələblərinə əməl olunmasına maksimum səy göstərməlidirlər.

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Suliddin Əliyev çıxış edərək bildirib ki, qanun üzrə hüquq və vəzifələrin meydana gəlməsi, dəyişdirilməsi və onlara xitam verilməsinə səbəb olan hadisələr və vətəndaşların hərəkətləri vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vasitəsilə rəsmiləşdirilir. Muxtar respublika Ədliyyə Nazirliyinin rayon və şəhər Qeydiyyat şöbələri ilə yanaşı, inzibati ərazi dairəsi üzrə nümayəndəliklər də doğumun, nikahın bağlanması və ölümün qeydiyyatını aparır.

Qeyd edilib ki, Sədərək rayonunda doğum, nikah və ölümün qeydiyyatı 3 inzibati ərazi dairəsi üzrə nümayəndəlik tərəfindən rəsmiləşdirilir. 2009-2013-cü illər ərzində rayonun icra nümayəndəlikləri tərəfindən doğum, nikah və ölümün qeydiyyatı ilə bağlı 1422 əməliyyat aparılıb. Onlardan 259 əməliyyat 2013-cü ilin payına düşüb. 2009-2013-cü illər ərzində Sədərək rayonunda icra nümayəndələri üçün 14 dəfə seminar təşkil olunub. Nazirlik tərəfindən icra nümayəndələri müvafiq reyestr, akt qeydləri və şəhadətnamələrlə vaxtında təmin ediliblər. Sədərək rayonundakı inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vəziyyətinin öyrənilməsi məqsədilə 2009-2013-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 10 dəfə yoxlama aparılıb, aşkar olunan nöqsanların aradan qaldırılması üçün metodik köməkliklər göstərilib.

Nazir diqqətə çatdırıb ki, hər bir icra nümayəndəsi fəaliyyətini qanunvericiliyə uyğun təşkil etməli, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin, kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə əməl etməlidir.

Tədbirə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov yekun vurub.

## Ötən il Naxçıvanda 25 məktəb binası tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilib

Hər il olduğu kimi, 2013-cü ildə də muxtar respublikamızın bütün bölgələrində yeni məktəb binalarının tikintisi, mövcud binaların yenidən qurulması və əsaslı təmir işlərinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmış, 25 tam orta məktəb binasında tikinti, yenidənqurma və əsaslı təmir işləri həyata keçirilmişdir. Bu məktəblərdə 9 min 164 şagirdin elmlərin sirlərinə yiyələnmələri üçün hərtərəfli şərait yaradılmışdır.

Yeni istifadəyə verilən məktəblərdə təhsilin səmərəliliyini artırmaq üçün müasir şərait yaradılmış, bütün təhsil ocaqları elektron lövhələr, kompüter dəstləri, idman qurğuları ilə təmin olunmuş, müəllim və şagirdlər zəngin kitabxanalardan istifadə etmək imkanı qazanmışlar.

Uşaqlara qayğı və diqqətin gələcək nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüdülməsinə xidmət etdiyini nəzərə alaraq onların təhsil və tərbiyəsinin təşkili, eləcə də məktəbəqədər tərbiyə müəssisələri üçün zəruri şəraitin yaradılmasına da ciddi önəm verilmiş, Naxçıvan şəhərində 275 yerlik 10 nömrəli, 242 yerlik 5 nömrəli, Sədərək rayonunun Heydərabad qəsəbəsində 144 və Ordubad şəhərində 242 yerlik uşaq bağçalarının tikintisi dövlətimizin 2013-cü ildə uşaqlara hədiyyəsi olmuşdur.

Qeyd edək ki, 2014-cü ildə də bir neçə məktəb binası istifadəyə verilmişdir.

**Səbuhi HÜSEYNOV**

## Komissiya maarifləndirici tədbirləri davam etdirir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Poqramı"na əsasən, məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı yaranan çətinliklərin aradan qaldırılması və bu sahədə görülən işlərə nəzarət etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrindən ibarət yaradılan komissiya fəaliyyətini davam etdirir.*

Belə ki, proqramın həyata keçirilməsi üzrə tədbirlər planında nəzərdə tutulan müxtəlif tapşırıqların icrasına uyğun olaraq, martın 5-də Şərur rayon Dəmirçi kənd tam orta məktəbində növbəti maarifləndirici tədbir keçirilib. Komissiya üzvlərinin, məktəbdə təhsil alan sağlamlıq imkanları məhdud şagirdlərin valideynlərinin, bu kateqoriyadan olan uşaqlara fənləri tədris edən müəllimlərin və məktəb psixoloqunun iştirak etdiyi tədbirdə təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqların tədrisə davamiyyəti, onlarla fərdi proqram əsasında həyata keçirilən tədbirlər və qarşıda duran vəzifələrlə bağlı söhbətlər aparılıb, komissiya üzvləri tərəfindən iştirakçıların sualları cavablandırılıb.

Maarifləndirici tədbirlər davam etdirilir.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər keçirilir



Dünən Naxçıvan Dövlət Tarix Muzeyində Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə muzeyin direktoru Nizami Rəhimov açaraq "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası çox mürəkkəb, çətin və keşməkeşli tarixi inkişaf yolu keçmişdir. Vaxtilə coğrafi cəhətdən Azərbaycanın mərkəzi ərazilərindən olan Naxçıvan XX əsrin əvvəllərində Azərbaycandan ayrı düşmüş, onunla sərhədi ləğv olunmuşdur. Erməni daşnakları böyük güclərin dəstəyi ilə yaranmış bu şəraitdən yararlanaraq Naxçıvanı işğal etməyə çalışmışlar. Lakin qəhrəman naxçıvanlıların mərdlik və igidliklə apardıqları mübarizə məkrli düşmənlərin arzularının reallaşmasına imkan verməmişdir. Naxçıvan diyarının əhalisi heç vaxt özünü Azərbaycandan ayrı təsəvvür etməmiş və 1921-ci ilin yanvarında keçirilən rəy sorğusunda mahalın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verilmişdir. Qeyd olunmuşdur ki, Naxçıvanın Azərbaycanın tərkibində qalmasında görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin böyük əməyi və xidməti olmuşdur. Onun təklifi, Türkiyə tərəfinin tələbi ilə Naxçıvan üzərində Azərbaycanın suverenliyinin təmin edilməsinə və ən nəhayət, Naxçıvan əhalisinin apardığı inadlı mübarizə Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səbəb olmuşdur. Güney Qafqaz respublikaları ilə Türkiyə arasında 1921-ci ildə imzalanan Qars müqaviləsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqləmiş və onun sərhədlərini qəti surətdə müəyyənləşdirmişdir. Vurğulanmışdır ki, ötən əsrin sonlarında, Naxçıvanda ictimai-siyasi proseslərin gərginləşdiyi bir dövrdə Qars müqaviləsi ümummilli lider Heydər Əliyev tərəfindən yenidən gündəmə gətirilmiş, regionun təhlükəsizliyinin təmin edilməsində bu sənəd mühüm əhəmiyyət kəsb etmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Gülbuta Babayevanın "Naxçıvan Muxtar Respublikasının 90 illiyinin dövlət səviyyəsində qeyd olunması və 2014-cü ilin Naxçıvan Muxtar Respublikasında "Muxtariyyət ili" elan olunması tarixi hadisədir", Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyevin "Ulu öndər Heydər Əliyev və Naxçıvanın muxtariyyəti", Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinin direktoru Ələmzər İbrahimovanın "Naxçıvan mədəniyyəti və ədəbiyyatı muxtariyyət illərində" mövzularında məruzələri dinlənilmişdir.

Tədbirdə Naxçıvan Qızlar Liseyinin şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirilmişdir.

Sonda tədbir iştirakçıları muzeydə yeni hazırlanmış "Naxçıvan Muxtar Respublikası – 90" adlı sərgiyə baxmışlar.

**Xəbərlər şöbəsi**



Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi – 90

# Muxtar respublikanın statistika sistemi uğurlu inkişaf yolundadır

***Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 1924-cü il 6 mart tarixli qərarı ilə Naxçıvan MSSR Mərkəzi Statistika İdarəsi yaradılmışdır. İdarə 1931-ci ildə Naxçıvan MSSR Dövlət Plan Komitəsi nəzdində Xalq Təsərrüfatının Qeydiyyat İdarəsi, 1934-cü ildə Naxçıvan MSSR Xalq Təsərrüfatı Uçotu İdarəsi, 1946-cı ilin mart ayından isə yenidən Naxçıvan MSSR Mərkəzi Statistika İdarəsi adlandırılmışdır. 1993-cü ildə Naxçıvan Muxtar Respublikası Statistika İdarəsinin nəzdində Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi yaradılmışdır.***

İdarənin yarandığı ilk illərdə əsas fəaliyyət sahəsi kimi əhali uçotu üstünlük təşkil etmişdir. 1932-ci ildə ilk dəfə olaraq sənaye müəssisələrinin, sovxozların, 1934-cü ildə isə kolxozlar üzrə illik hesabat məlumatlarının yığılıb işlənilməsinə başlanılmışdır. Ötən əsrin 70-80-ci illərində isə statistika orqanları öz fəaliyyətlərini, əsasən, dövlət planlarının və tapşırıqlarının yerinə yetirilmə vəziyyəti, eləcə də xalq təsərrüfatında mövcud olan ehtiyatların aşkara çıxarılması istiqamətində qurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi hazırda muxtar respublikada statistika sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən sosial, iqtisadi, demoqrafik və ekoloji vəziyyət ilə bağlı rəsmi statistik məlumatları vahid metodologiya əsasında formalaşdıran mərkəzi icra hakimiyyəti orqanıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 6 iyul tarixli Fərmanı ilə komitənin yeni Əsasnaməsi təsdiq edilmiş, onun əsas fəaliyyət istiqamətləri, vəzifə və hüquqları müəyyənləşdirilmişdir. Muxtar respublikada idarəetmənin səmərəli təşkili üzrə həyata keçirilən davamlı tədbirlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin kadr potensialının və maddi-texniki bazasının gücləndirilməsi işi də diqqət mərkəzində saxlanılmış, Naxçıvan Şəhər və Kəngərli Rayon Statistika idarələri yaradılmış, komitəyə yeni ştat vahidləri verilmişdir. Bundan əlavə, ötən dövr ərzində Şərur Rayon Statistika İdarəsi üçün yeni inzibati bina istifadəyə verilmiş, Ordubad, Kəngərli və Sədərək Rayon Statistika idarələrində iş şəraiti yaxşılaşdırılmışdır. 2010-cu ildə Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin və Naxçıvan Şəhər Statistika İdarəsinin yeni inzibati binasının istifadəyə verilməsi isə bu sahədə həyata keçirilən tədbirlərin davamı kimi mühüm əhəmiyyətə malik olmuşdur.

Bu gün komitə tərəfindən muxtar respublikada sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə, energetika, ticarət, turizm, demoqrafiya, əmək, sosial sektor, idarəetmə üzrə hesabatların yığılması, statistik məlumatların əks olunduğu nəşrlərin, məruzə və məcmuələrin hazırlanması, statistik müşahidələr, əhali və kənd təsərrüfatı siyahıyaalmaları həyata keçirilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 12 yanvar tarixli Sərəncamı ilə “2008-2012-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı” təsdiq olunmuşdur. Dövlət proqramının tələblərinə uyğun olaraq, ötən dövr ərzində iqtisadi sahələr üzrə makroiqtisadi göstəricilərin və onların hesablanması metodologiyasının, beynəlxalq statistika standartlarının tələblərinə əsasən, statistik müşahidələrin və göstəricilərin metodologiya və proqramlarının təkmilləşdirilməsinə, statistik informasiyanın istifadəçiləri ilə qarşılıqlı əlaqə sisteminin inkişafına və digər məsələlərə xüsusi diqqət yetirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 14 mart tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıya alınmasına yardım komissiyası yaradılmış və əhalinin siyahıya alınması keçirilmişdir. Əhalinin siyahıya alınması nəticəsində muxtar respublikada əhalinin demoqrafik vəziyyəti, sayı, tərkibi və yerləşməsi haqqında, habelə sosial-iqtisadi proqnozların aparılması üçün lazım olan məlumatlar əldə edilmişdir.

Hazırda muxtar respublikada rəsmi statistika fəaliyyəti üzrə əsas məqsəd statistika sahəsində həyata keçirilən islahatların, məlumat təminatının daha da yaxşılaşdırılması, statistik göstəricilər sisteminin müasir standartlar səviyyəsinə çatdırılmasından ibarətdir. Son illərdə rəsmi statistika sahəsindəki müsbət dəyişikliklərlə yanaşı, muxtar respublika iqtisadiyyatının modernləşdirilməsi və cəmiyyət həyatında gedən proseslərin rəsmi statistikada əks etdirilməsinin zəruriliyi dövlət statistika orqanları qarşısında yeni vəzifələr qoymuşdur. Bu gün statistika sistemində dəyişikliklər statistik göstəricilərin müntəzəm olaraq təkmilləşdirilməsi, dövlət statistika orqanlarının vahid informasiya sisteminin, o cümlədən elektron statistikanın inkişafı və statistika sistemində beynəlxalq əlaqələrin genişləndirilməsi yolu ilə həyata keçirilməkdədir.

Dövlət statistika sisteminin informasiya texnologiyalarının texniki və proqram-texnoloji təminatının təkmilləşdirilməsi istiqamətində görülən işlərin tərkib hissəsi olaraq komitənin yeni internet saytı yaradılmışdır. İnternet səhifəsində statistik məlumatlar, hesabat formaları, təlimatlar, metodoloji izahlar yerləşdirilmişdir. Müəssisə və təşkilatlar tərəfindən hesabatların elektron formada təqdim olunması üçün saytda “Rəsmi statistik hesabatların təqdim edilməsi” bölməsi yaradılmışdır.

Ölkə Prezidentinin və Ali Məclis Sədrinin fərman və sərəncamları ilə qəbul olunan dövlət proqramlarının icrası istiqamətində qarşıya qoyulan vəzifələrin icrası da komitə tərəfindən daim diqqət mərkəzində saxlanılır. Belə ki, dövlət proqramlarında nəzərdə tutulan vəzifələrin icrası ilə bağlı müvafiq qurumlar tərəfindən təqdim edilən hesabatlar əsasında təhlili və müqayisəli məlumatlar hazırlanır. Bu da nəzərdə tutulan işlərin yerinə yetirilməsi haqqında ətraflı məlumatların əldə olunmasına imkan verir.

Ötən dövr ərzində statistika orqanlarında çalışan əməkdaşların əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, komitənin 3 əməkdaşı “Dövlət qulluğunda fərqlənməyə görə”, 1 əməkdaşı isə “Tərəqqi” medalları ilə təltif olunmuşlar.

***Yaradılmasının 90 illiyini qeyd edən Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları bundan sonra da qarşıda duran vəzifələrin uğurla icrası, müasir standartlara uyğun statistika işinin təşkili və bu istiqamətdə yeniliklərin tətbiqi məqsədilə səylə çalışacaqlar.***

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Naxçıvanda yüksək kredit mədəniyyəti formalaşdırılıb

***Xəbər verdiyimiz kimi, 28 fevral-1 mart tarixlərində Naxçıvan şəhərində Azərbaycan Bank Tədris Mərkəzi tərəfindən muxtar respublikada kənd təsərrüfatının kreditləşməsi mövzusunda kurs keçilmişdir. Tədbirdə iştirak edən Bank Tədris Mərkəzinin direktoru Cavanşir Abdullayevlə həmsöhbət olduq:***



***– Cavanşir müəllim, bu kursun keçilməsində məqsəd nədir?***

– Bilirsiniz, bank işi daim olaraq iqtisadiyyatın digər sahələri ilə əlaqəli şəkildə inkişaf edərək təkmilləşmə tələb edən həssas bir sahədir. Biz 2003-cü ildən başlayaraq hər il ölkəmizin regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında bank işçiləri ilə görüşlər təşkil edir, onların kreditləşmə sahəsində bilik və bacarıqlarının artırılması üçün belə tədbirlər keçiririk. Bu dəfə də Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin dəvəti ilə biz kənd təsərrüfatının maliyyələşməsi istiqamətində bankların fəallığının artırılması və kredit alan fermer və torpaq mülkiyyətçiləri ilə onların əməkdaşlığının genişləndirilməsi yollarını müzakirə etmək üçün burdayıq. Bu görüşümüzün vaxtı da təsadüfi deyildir. Qarşıdan yaz fəsli gəlir və kəndli öz təsərrüfat ilinə başlamaq üzrədir. Onların ilin bu vaxtında problemlərinin öyrənilməsi, torpaq mülkiyyətçilərinə lazım olan maliyyə dəstəyinin vaxtında göstərilməsi üçün bank işçilərinin üzərinə düşən vəzifələrin müəyyənləşdirilməsi, praktik məsələlərin öyrənilməsi bu kursun əsas məqsədlərindəndir.

***– Müasir dövrdə bank işçisi, kredit mütəxəssisi qarşısında hansı vəzifələr durur?***

– Qeyd etdiyimiz kimi, bank işi çox həssas bir sahədir. Kənd təsərrüfatı da çox mürəkkəb, bir çox faktorlardan asılı olan bir sahədir. Əgər sırf aqrar sahənin kreditləşməsi üzrə məsələyə baxsaq, görərik ki, bank mütəxəssisi burada öz fəaliyyəti ilə təkcə bir fermer və ya torpaq mülkiyyətçisinə kredit verməklə kifayətlənməməlidir. Burada məsələyə kompleks yanaşılmalı, onun bütün cəhətləri nəzərə alınmalıdır. Başqa sözlə, bankla fermer arasındakı əlaqələr quru hesabat xatirinə deyil, onun işinin uğuru naminə təşkil olunmalıdır. Fermerə kredit verən bankın işçisi, öz növbəsində, kənd təsərrüfatı sahəsinə bələd olmalı, bu sahədəki mövsümilik problemini bilməli, torpaq, iqlim xüsusiyyətlərini, emal sənayesinin imkanlarını, rentabelliliyi nəzərə almalıdır. Bütün bu kimi məsələlər yaxşı mənimsənilib, risklər düzgün qiymətləndirildikdə həm bankın, həm də torpaq mülkiyyətçisinin uğurundan danışmaq mümkündür.

***– Cavanşir müəllim, Naxçıvan Muxtar Respublikasında bank-kredit işində hansı spesifik cəhətləri müşahidə edirsiniz?***

– Naxçıvan ölkəmizin sürətlə inkişaf edən regionlarından biridir. Və bu inkişafda, şübhəsiz, bank sektorunun da öz rolu vardır. Ötən dövrdə Naxçıvana hər gəlişimizdə gözəlləşən diyarın hər guşəsində yenilikləri görüb sevinirik. Bunları bank sahəsində də görülən işlərə aid etmək olar. Burada fəaliyyət göstərən banklar həyata keçirilən uğurlu idarəetmə sayəsində iqtisadiyyatın bütün sahələrinin, o cümlədən kənd təsərrüfatının inkişafına öz töhfələrini verməkdə, regionun hərtərəfli inkişafı üçün bütün imkanlardan istifadə etməkdədirlər. Mən burada fəaliyyət göstərən bankları bir-birinə rəqib deyil, korporativ əməkdaşlar kimi görürəm. Məqsəd aydın, strategiya vahid olanda belə əməkdaşlıq da mümkündür. Belə əməkdaşlıq bu gün Naxçıvanda vardır. Elə bunun nəticəsidir ki, hazırda muxtar respublikada verilən kreditlərin risk ehtimalı ümumi ölkə üzrə mövcud olan göstəricidən 12 dəfə azdır. Başqa sözlə, digər regionlarda batan kreditlər ümumi kreditləşmənin 6 faizini təşkil etdiyi halda Naxçıvanda bu rəqəm cəmi 0,5 faizdir. Bu da Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın düzgün idarə olunduğunu, banklarla real sektor arasında əlaqələrin yaxşı tənzimləndiyini, digər sahələrdə olduğu kimi, kredit mədəniyyətinin də yüksək olduğunu göstərir.

***– Müsahibə üçün sağ olun!***

**Əli CABBAROV**

# Mərkəzi qida sınaq laboratoriyası beynəlxalq standart üzrə sertifikatlaşdırılmışdır

***Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyi “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti üçün müasir avadanlıqlarla təchiz edilmiş yeni bina tikilərək 2008-ci ildə istifadəyə verilmişdir.***



“İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mütəmadi olaraq məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ötən illər ərzində ABŞ, Almaniya, İngiltərə, Polşa, İtaliya, Türkiyə istehsalı olan, beynəlxalq standartlara uyğun laboratoriya avadanlıqları alınıb quraşdırılmış və bu istiqamətdə mütəxəssislərə təlimlərin keçilməsi təmin edilmişdir.

İstehlak Mallarının Ekspertizası Mərkəzi tərəfindən Mərkəzi qida sınaq laboratoriyasının beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması istiqamətində tədbirlər davam etdirilir.

“İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC ilə Latviya Respublikasının Yeyinti Məhsullarının Təhlükəsizliyi və Ətraf Mühit üzrə Elmi-Tədqiqat İnstitutu arasında 26 oktyabr 2012-ci il tarixdə bağlanmış müqaviləyə əsasən, Mərkəzi qida sınaq laboratoriyasının İSO/İEC 17025:2005 standartı üzrə sertifikatlaşdırılması nəzərdə tutulmuşdur.

Bununla əlaqədar olaraq, “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC-nin Mərkəzi qida sınaq laboratoriyasında menecment sisteminin qurulması və akkreditasiya ilə bağlı müvafiq tədbirlər görülmüş, habelə Polşanın “LGC Standarts” və Latviya Respublikasının adıçəkilən institutu ilə əməkdaşlıq edilərək müqayisəli sınaqlar həyata keçirilmişdir. Müqayisəli sınaq testlərinin nəticələri qeyd olunmuş qurumlar və Latviya Respublikasının Milli Akkreditasiya Bürosu tərəfindən müsbət qiymətləndirilmişdir.

Akkreditasiya istiqamətində görülmüş işlərin nəticəsi olaraq, laboratoriya Latviya Respublikasının Milli Akkreditasiya Bürosunun LATAK-T-492-00-2014 saylı, 28 yanvar 2014-cü il tarixli şəhadətnaməsi ilə 27 yanvar 2018-ci il tarixədək İSO/İEC 17025:2005 standartı üzrə sertifikatlaşdırılmışdır.

İSO/İEC 17025:2005 standartının tələblərinə uyğun olaraq, laboratoriya ərzaq məhsullarında kimyəvi, fiziki-kimyəvi və toksikoloji sınaqlar üzrə akkreditə edilmişdir. Akkreditasiya sahəsinə ərzaq məhsullarında ağır metallardan qurğuşun və kadmium elementlərinin, ət məhsullarında nitrat, nitrit, süd və süd məhsullarında isə quru maddələrin kütlə payı, yağlılığın təyin olunması və zülalın təyini daxil edilmişdir.

Azərbaycan Respublikasında qida sektorunda sayca 3-cü və muxtar respublikada ilk beynəlxalq akkreditasiyalı laboratoriya olan “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC-nin Mərkəzi qida sınaq laboratoriyası regionumuzda istehsal edilən və ya muxtar respublikaya idxal olunan qida məhsullarının beynəlxalq tələblərə uyğun yoxlanılmasını təmin edəcək, istehsalçı müəssisələrin xarici ölkələrə məhsul ixracını asanlaşdıracaqdır.

Muxtar respublikamızda fəaliyyət göstərən və ərzaq məhsullarının istehsalı ilə məşğul olan sahibkarlıq subyektlərinin nəzərinə çatdırmaq istərdik ki, istehsal etdikləri məhsulların laboratoriya göstəricilərinin yoxlanılmasının beynəlxalq standartlar səviyyəsində həyata keçirilməsi və ixrac olunan məhsulların keyfiyyətinin yoxlanılması üçün laboratoriyanın xidmətlərindən istifadə edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin mətbuat xidməti***

Naxçıvanlı diplomatlar

# Naxçıvanın "təyini-müqəddəratı" uğrunda Əli Səbri Qasımovun diplomatik fəaliyyəti

*"Üç gün, üç gecə oturub Tiflisdə general Haskelə memorandum yazdım. ...Memorandumu generala təqdim etdim"*

Onu ən yaxşı halda yazıçı, jurnalist, tərcüməçi və Naxçıvanın azadlığı uğrunda döyüşən bir əsgər kimi xatırlayırıq çox zaman. Naxçıvanın "təyini-müqəddəratı"nın 90 illik yubileyini qeyd etdiyimiz bu günlərdə Əli Səbri Qasımovun diplomat kimi göstərdiyi fəaliyyətini xatırlamadan keçmək olmaz. Çünki hələ 1918-1919-cu illərdə Əli Səbri Qasımov və Naxçıvanın digər vətənpərvərləri ölüm-dirim mübarizəsinə atılmasaydılar, amerikalı generallara idarəçi deyil, hərbçi olduqlarını xatırlatmasaydılar, yəqin ki, 1924-cü il muxtariyyətinin qazanılması haqqında danışmaq bir az çətin olardı. Öz taleyi uğrunda vuruşmayan xalq üçün heç bir beynəlxalq qüvvə muxtariyyət tələb etmək gücündə olmayacaqdı. Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Bu tarixi nailiyyətin baş müəllifi isə naxçıvanlılardır. Kalbalı xan, Rəhim xan, Behbud ağa Şahtaxtinski, Əli Səbri Qasımovun simasında Naxçıvan əhalisi…

Əli Səbri Qasımov 1892-ci ildə Nehrəm kəndində dünyaya göz açıb. O Nehrəm kəndində ki, hər zaman özünün qəhrəmanlığı, mübarizliyi ilə seçilən tarixi Azərbaycan kəndlərindən biri olub.

Təhsilini Naxçıvanda Məhəmməd Tağı Sidqinin "Məktəbi-tərbiyə"sində və Qori Müəllimlər Seminariyasında alan Əli Səbri Qasımovun geniş ədəbi fəaliyyəti haqqında filologiya elmləri doktoru Hüseyn Həşiminin "Əli Səbri" adlı kitabında, bir çox müəlliflər tərəfindən yazılan məqalələrdə məlumat verilmişdir.

*Səngərlərdən siyasi danışıqlara...*

Əli Səbri Qasımovun diplomatik fəaliyyəti Naxçıvanın və ümumilikdə, Azərbaycanın tarixi taleyinin ən çətin və keşməkeşli dövrlərindən biri hesab edilən 1918-1919-cu illərə təsadüf edir. Bu zaman Naxçıvan uğrunda gedən mübarizə, Naxçıvana ermənilərin əsassız ərazi iddiaları Əli Səbri Qasımovu lazım gəldiyi anda əldə silah doğma yurdun müdafiəsinə qalxmağa vadar etmişdir. Bizə qədər yazılan məqalələrdə onun diplomat fəaliyyətinin daha çox Amerika generalı Haskellə görüşü məqamı göstərilmişdir. Lakin Naxçıvanın və naxçıvanlıların mənafeyinin əzmkar mübarizi kimi Əli Səbri Qasımov təkcə Amerika generalı Haskellə deyil, Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri Nəsib bəy Yusifbəyli, Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Məmməd Yusif Cəfərovla görüşlər keçirmiş, 1919-cu il sentyabrın 9-da Naxçıvan, Ordubad, Şərur, Sürməli, Vedibasar mahallarının əhalisi adından hazırlanaraq Azərbaycan Xalq Cümhuriyyətinin başçılarına göndərilən sənədə imza atmışdır.

*O, Amerika generalına siyasətçi deyil, hərbçi olduğunu etiraf etdirdi...*

Əli Səbri Qasımovun Amerika generalı Haskellə Tiflis görüşündə səslənən fikirlər, sadəcə, alovlu bir vətənpərvərin deyil, eləcə də hərbin və siyasətin qarşılıqlı təsirini yaxşı bilən bir diplomatın fikirləridir. Tarixçi alim Musa Quliyev "Tariximizin qəhrəmanlıq mücahidi Əli Səbri Qasımov haqqında bəzi qeydlər" adlı məqaləsində yazır ki, Haskelə naxçıvanlılar adından memorandumu təqdim edən Əli Səbri Qasımov demişdir: "Əgər bu tələblər qəbul olunmasa, naxçıvanlılar öz istiqlaliyyətlərini əldə silah qoruyacaqlar".

Qeyd edək ki, Naxçıvan əhalisi adından Amerika generalı Haskelə memorandum təqdim edilməsinin səbəbi regiona hərbi qüvvə kimi gələn Amerika nümayəndələrinin idarəçiliyi ələ almaq cəhdləri, buna nail ola bilmədikləri təqdirdə isə tarixən müsəlmanların və Azərbaycan türklərinin yaşadıqları əraziləri, o cümlədən Naxçıvan, Ordubad, Şərur, Vedibasar, Sürməli və digər əraziləri ermənilərin idarəçiliyinə vermək niyyətləri olmuşdur.



Qeyd edək ki, hələ bir müddət öncə ingilislərin dəstəyi ilə Naxçıvanda yaradılmasına cəhd göstərilən "erməni idarəçiliyini" süpürüb atmış naxçıvanlılar bu diyarın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu elan etmişdilər. Qafqaza gələrək Tiflisdə qərargah yaradan Amerika generalı Haskel isə Naxçıvan ətrafında bitərəf bölgə yaratmaq və burada Amerika valiliyi təsis etmək məqsədilə avqust ayında Bakıya gedərək Azərbaycan hökuməti ilə danışıqlar aparmış və hökumətlə 12 bənddən ibarət razılıq əldə edilmişdi. Türk tarixçisi İbrahim Ethem Atnurun "Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1920)" adlı kitabında ilk razılaşmanın şərtləri ilə tanış olarkən məlum olur ki, Azərbaycan hökuməti, sadəcə olaraq, müvəqqəti general-qubernatorluğun yaradılması ilə razılaşmışdır. Bundan əlavə, razılaşmada general-qubernatorluq ərazisində məhkəmə, dəmir və şose yolları, poçt və teleqraf, milli təhsil məsələlərinin Naxçıvanda mövcud olan Milli Şuranın səlahiyyətində olduğu, general-qubernatorluq büdcəsinin Azərbaycan xəzinəsi tərəfindən təmin edildiyi, ərazidə rəsmi pul vahidinin Azərbaycan pulu olacağı, Bakı-Culfa dəmir yolunun inşaat sahəsinin Azərbaycanın nəzarətində olacağı da əksini tapmışdır.

Lakin Tiflisə qayıtdıqdan sonra Haskel Azərbaycanın və Naxçıvanın mənafeyinə zidd, ermənilərin isə əsassız iddialarına şərait yaradacaq 21 maddəlik yeni bir layihəni imzalayaraq Azərbaycan və Ermənistan hökumətlərinə göndərmişdi. Az sonra ermənilərin təkliflərini alan Haskel Dərələyəz ərazisinin yaradılacaq bitərəf bölgəyə deyil, Ermənistana aid edilməsi, bitərəf bölgədə Ermənistanın imtiyazlı tərəf kimi tanınması, Azərbaycanın bölgəyə pul göndərməsinin qadağan edilməsi, Bakı-Culfa dəmir yolu xəttinin Azərbaycan tərəfindən inşasına icazə verilməməsi, Zəngəzurun erməni bölgəsi kimi tanınması ilə razılaşmışdır. Belə bir şəraitdə Haskel Azərbaycan hökumətini də təhdid edir, ona Şimal təhlükəsinə qarşı yardım etməyəcəyini bildirirdi. Məhz bu vəziyyətdə Əli Səbri Qasımov və Əsgərov soyadlı bir nəfər Araz vadisi müsəlmanlarının nümayəndələri kimi sentyabrın ortalarında Tiflisdə general Haskellə görüşmüşdülər. Bundan əvvəl isə Əli Səbri Qasımov burada Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri Nəsib bəy Yusifbəyli ilə görüşmüş, Azərbaycan Xalq Cümhuriyyətinə bağlılıqlarını ifadə etmişdi.

İndiyə qədər yazılan məqalə və tədqiqat əsərlərində memorandumdakı maddələrin sayı iki cür göstərilir: 10 və 17. Akademik İsmayıl Hacıyev "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan", İ.Atnur isə "Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1920)" adlı əsərlərində maddələrin sayının 10 olduğunu göstərirlər. Qeyd edək ki, Azərbaycan Respublikası Mərkəzi Dövlət Ən Yeni Tarix Arxivinin sənədlərinə əsaslanan bu müəlliflərin göstərdiyi rəqəmin doğru olduğu daha ağılabatandır.

Memorandumda Araz vadisindəki müsəlman bölgələrində referendum keçirilməsi, bölgə əhalisinin yalnız Paris Sülh Konfransında bölgənin Azərbaycana aid olmasının təsdiqlənməsinə qədər Amerika general-qubernatorluğunu qəbul etməsi və sair məsələlər əksini tapmışdı.

Məhz Əli Səbri Qasımovun əzmkarlığı və gətirdiyi dəlillər qarşısında general Haskel maraqlı bir etiraf etmişdi. Biz oxucularımıza bu görüşü Əli Səbri Qasımovun yazdığı "Xatirələr, duyğular" adlı memuarının dili ilə çatdırmaq istərdik. Beləliklə, "Azərbaycan" ədəbi-bədii jurnalının 11 noyabr 1982-ci il tarixli sayında çap olunan "Xatirələr, duyğular" adlı memuarda Əli Səbri Qasımov yazırdı: *"1919-cu ildə Antanta qoşunları Zaqafqaziyanı işğal edərkən ordu komandanı Amerikan generalı Qaskel idi. O zaman Ermənistanda hakimiyyət daşnak partiyasının əlinə keçmişdi.*

*Naxçıvanda gərgin vəziyyət yaranmışdı, camaat ancaq Zəngəzur yolu ilə Bakıya və Tiflisə gedə bilirdi.*

*Naxçıvanlılar həmin yolla yaşlı bir kişini – Əsgərov soyadlı birisini mənim yanıma göndərdilər. Üç gün, üç gecə oturub Tiflisdə general Qaskelə memorandum yazdım.*

*...Memorandumu generala təqdim etdim. Tərcüməçilər orda yazılanları generala çatdırdılar.*

*O, fikrə getdi. Mən pəncərədən çöl tərəfə baxırdım. General başını aşağı salıb nə isə düşünürdü. Nəhayət, Qaskel başını qaldırdı:*

*– Sabri cənablarına deyin ki, mən soldatam. Mənim siyasətlə işim yoxdur...*

*İki gündən sonra yerli qəzetlər "Naxçıvan nümayəndələri Qaskelin yanında" sərlövhəsi ilə danışıqların təfsilatını çap etmişdilər. Əsgərov həmin qəzetdən bir neçəsini alıb Naxçıvana qayıtdı".*

*Azərbaycan hökuməti Naxçıvan əhalisinin istəmədiyi planda iştirak etməyəcək...*

Qeyd edək ki, bundan sonrakı dövrdə Amerika nümayəndələri ilə Naxçıvanda aparılan danışıqlar və yerli əhalinin ciddi müqaviməti nəticəsində amerikalılar Naxçıvanda məqsədlərinə nail ola bilmədilər. Naxçıvan əhalisinin ciddi müqaviməti özü də çətin vəziyyətdə olan Azərbaycan Xalq Cümhuriyyətinə bu plandan imtina etmək üçün əsas verdi. Belə ki, Azərbaycan hökuməti amerikalılara tam general-qubernatorluğun qurulması ərəfəsində belə bir cavab verdi: "Azərbaycan hökuməti Naxçıvan əhalisinin istəmədiyi bu planda iştirak etməyəcək".

Tarixçi Nail Əliyev "Əli Səbri Qasımov – unudulmaqda olan diplomat, döyüşçü, yazıçı" məqaləsində "Azərbaycan" qəzetinin 1919-cu ildə çapdan çıxmış 193-cü sayından Əli Səbri Qasımovun Transqafqaz ali komissarı Haskellə dialoqdan maraqlı bir məqamı sitat gətirir: *"Naxçıvan əlində silah öz istiqlalını son nəfəsinədək qoruyacaq. Biz Ermənistan adlı hökuməti tanımırıq. Bütün gücümüzlə belə hökuməti ona görə rədd edirik ki, biz təyini-müqəddərat istəyirik... bu, bizim hüququmuzdur, onu heç kimə güzəşt etmərik.*

*Özünə azadlıq alan xalq hətta Azərbaycan hökumətinə ixtiyar verməz ki, onun xüsusi arzusuna riayət etməyib taleyini həll etsin, bu, mütləq nəzərə alınmalıdır".*

***Bəli, Əli Səbri Qasımovun bütün naxçıvanlıların arzusunu ifadə edən "təyini-müqəddərat" tələbindən sonralar onun həmyerlisi, digər bir görkəmli diplomatımız Behbud ağa Şahtaxtinskinin muxtariyyət tələbləri doğdu. O muxtariyyət ki, Naxçıvanda azərbaycanlı kimliyini qorudu. O azərbaycanlı KİMLİYİ isə dünyaya BÜTÜN DÖVRLƏRİN ƏN BÖYÜK AZƏRBAYCANLISI olan dahi Heydər Əliyevi bəxş etdi. O dahini ki, Naxçıvanın tarixi keçmişini və muxtariyyətinin əsaslarını gözəl bilirdi və bu bilik XX əsrin 90-cı illərində Naxçıvanı işğaldan və təcavüzdən qorudu. O tarixi ki, onu gözəl bilməsək, coğrafiyamızı başqaları müəyyənləşdirər.***

Elnur KƏLBİZADƏ

*Gəmiqaya abidəsi adı və ecazkar gözəlliyi ilə, min illər boyu haqqında söylənilən əfsanə və rəvayətlərlə geniş elmi ictimaiyyətin maraq dairəsindədir. Abidədəki vulkanik mənşəli daşlardakı qayaüstü təsvirlərdən ibarət yazılı daş salnamələrimizi, onun ətrafındakı zəngin arxeoloji abidələri öyrəndikcə sanki Azərbaycan xalqının milli-mənəvi dünyasının qədim dövrlərinə səyahət edirsən.*

# Gəmiqaya ətrafından yeni arxeoloji materiallar tapılıb



Gəmiqaya tarixi abidələri kompleks şəkildə Azərbaycanın qədim mədəniyyət və incəsənət xəzinəsinə qızıl fond kimi daxildir. Onların kompleks şəkildə öyrənilməsi, hər zaman olduğu kimi, bu gün də uğurla davam etdirilir. Bu sahədə tərəfimizdən aparılan tədqiqatlar nəticəsində son dövrlərdə də bir sıra yeni arxeoloji materiallar aşkar olunmuşdur. Onlardan hər birinin öyrənilməsi Naxçıvanın qədim və zəngin tarixi ilə bağlı maraqlı elmi faktların aşkarlanması ilə nəticələnmişdir. Gəmiqaya ətrafında aşkar edilmiş yeni arxeoloji abidələr içərisində Humay qayası nekropolu ilə bağlı aparılan araşdırmalar zamanı bir sıra maraqlı nəticələr əldə olunmuşdur. Nəsirvaz kəndinə gedən yoldan yuxarıda, Nəbi yurdu və Qara pirdən aşağıda, Humay qayası dağının ətəyində, təpə üzərində yerləşən bu abidədəki qəbirlər şərq istiqamətindədir. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə nekropolun yaxınlığındakı "Kollu" adlı yerdə divar qalıqları olmuşdur. Orada müxtəlif dövrlərdə aparılan təsərrüfat işləri nəticəsində divarlar dağılmışdır. Humay qayası nekropolundakı qəbirlərin quruluşuna əsasən, abidənin erkən orta əsrlər dövrünə aid olduğunu ehtimal etmək olar. Bu abidənin öyrənilməsi zamanı iki mühüm faktı nəzərə almaq lazımdır. Həmin faktlardan biri abidədəki qəbirlərin qiblə istiqamətində olmasıdır. Digər mühüm fakt nekropolun yerləşdiyi ərazinin adı ilə bağlı insanların yaddaşlarında qalan əfsanə və rəvayətlərdən ibarətdir. Əfsanə və rəvayətlərdə Humay (Umay) ilahəsi ilə Humay quşu arasındakı mif yaxınlığı daha aydın şəkildə görünür. Gəmiqaya ətrafındakı Tivi, Nəsirvaz və Bist kəndlərinin sakinləri ilə söhbətləşərkən məlum oldu ki, həmin ərazinin Humay qayası adlanması ilə bağlı iki əfsanə insanların yaddaşında dövrümüzədək yaşamaqdadır. Əfsanələrdən birində deyilir ki, Humay adlı gözəl bir qız olmuşdur. Bu qızla kəndin (hansı kəndin çobanı olduğu dəqiq bilinmir) çobanı bir-birini sevirmişlər. Humayın gözəlliyinə aşiq olan varlı bir oğlan onu zorla almaq istəyir. Sevgilisindən ayrılmamağa söz verən Humay varlı oğlanla evlənməmək üçün kənddən qaçmış, özünü qayadan atmışdır. Buna görə də oraya "Humay qayası" adı verilmişdir.

Digər əfsanədə bu qayanın adının Humay quşunun daşla bağlılığından bəhs edilir.

Humay qayası abidəsinin onun Gəmiqaya ətrafındakı digər arxeoloji abidələrlə müqayisə edilməsi də bizə zəngin faktlar verir. Onun Bibqətəl və Qara pirlə müqayisəsi zamanı məlum olur ki, hər üç abidəni (Humay qayası, Bibqətəl piri, Qara pir) birləşdirən əsas cəhət onlara aid əfsanələrdə dağla bağlı inamdan bəhs edilməsidir. Mənbələrə nəzər salarkən görürük ki, türk mifologiyasında dağa olan inam, dağ kultu geniş yayılmışdır və həmin mənbələrdə qeyd edilir ki, kiçik dağlar daha böyük dağlara tabedirlər, dağlar bir yerdən başqa yerə gedə bilər, bir-birləri ilə döyüşər, hətta evlənərlər. Humay qayası ilə yanaşı, Gəmiqaya ətrafında da aparılan araşdırmalar zamanı tərəfimizdən aşkarlanan Tivi kəndində ilk dəfə qeydə alınmış kitabələr, üzərində insan təsviri olan sütun altlığı və bir ədəd mis pul (fels) maraqlı arxeoloji tapıntılardan olub, Naxçıvanın qədim və zəngin tarixini öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır və öz tədqiqatçılarını gözləyir. Kitabələrdən biri yaxşı qalmadığından onun üzərini oxumaq çətinlik törədir. Digər kitabənin üzərində, daşın yuxarı hissəsində 1229 (1229 hicri tarixi – miladi 24.12.1813-13.12.1814), ondan bir qədər aşağıda isə ərəb əlifbası ilə söz yazılmışdır. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun direktoru Fəxrəddin Eylazov tərəfindən kitabənin üzəri oxunarkən müəyyən olunmuşdur ki, orada Məhəmməd Əli Əkbər Azər sözləri yazılmışdır. Tivi kəndi ərazisindən tapılmış mis pulun bir üzündə tovuzquşu rəsmi çəkilmişdir. Onun digər üzündə isə qılınc, qalxan və kiçik ayparanın təsvirini görürük. Fəxrəddin Eylazov tərəfindən oxunan bu yazıda müəyyən edilmişdir ki, sikkənin üzərində ərəb yazısı ilə 404 (404 hicri tarixi – miladi 13.07.1013-cü ildən 01.07.1014-cü ilə qədər) və "Qol rəbb sad" sözləri yazılmışdır. Bu sözü "Allah-Taala Peyğəmbərə dedi" mənasında izah etmək olar. Gəmiqaya ətrafında aparılan arxeoloji tədqiqatlar zamanı Darkənddə qeydə alınmış kitabə də maraqlı arxeoloji materiallardan olub, tariximizin öyrənilməsində mühüm yer tutur.

Yeni arxeoloji materialların öyrənilməsi onu deməyə əsas verir ki, qədim tarixə və mədəniyyətə malik olan Naxçıvandakı Gilançay vadisində, Gəmiqaya ətrafında hələ də tarixin daş yaddaşına çevrilən, öz tədqiqatçılarını gözləyən abidələrimiz qalmaqdadır.

**Toğrul XƏLİLOV**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru*

# Naxçıvanda idman bayramı

***Dünən 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Naxçıvan Muxtar Respublikasında bir sıra tədbirlər keçirilib.***

Tədbirlər planına uyğun olaraq, ilk tədbir Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində olub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının birgə təşkil etdiyi yeniyetmələr arasında cüdo üzrə Naxçıvan Muxtar Respublikası birinciliyinin açılış mərasimində muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov çıxış edərək Bədən Tərbiyəsi və İdman Gününün təsis edilməsindən danışmışdır. Qeyd olunmuşdur ki, bu tarix Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Bədən Tərbiyəsi və İdman Gününün təsis edilməsi haqqında” 4 mart 2005-ci il tarixli Sərəncamına əsasən qeyd edilir. 1997-ci ildə cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra ölkəmizdə idmana, bədən tərbiyəsinə diqqət daha da artmışdır. Ölkəmizdə idmanın inkişafı ildən-ilə geniş vüsət alır. Bütün bunlara görədir ki, Azərbaycan artıq dünyanın idman mərkəzlərindən birinə çevrilib. Ölkə rəhbərinin idmançılara xüsusi həssaslıqla yanaşması, yeni olimpiya-idman komplekslərinin və idman bazalarının yaradılması haqqında qərarları bu sahənin inkişaf və tərəqqisinə



xidmət edir. Naxçıvanda idmana və idmançılara göstərilən qayğıdan da danışan nazir vurğulayıb ki, son illər muxtar respublikada idmanın maddi-texniki bazası möhkəmləndirilib, 2 Olimpiya-İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, 1 Şahmat Mərkəzi, 1 Stend və Sporting Atıcılıq Mərkəzi, 1 Peyntbol meydançası, rayon mərkəzlərində 6 şahmat məktəbi, rayonlarda stadionlar, süni örtüklü mini-futbol meydançaları, yeni tikilən tam orta məktəblərdə idman zalları yaradılıb, yeni olimpiya ağırlıqqaldırma qurğuları və sadə tipli idman avadanlıqları istifadəyə verilib.

Güləş Federasiyasının sədr müavini Yaşar Səfərov çıxışında yarış haqqında məlumat verərək mübarizə aparacaq idmançılara uğurlar arzulayıb.

Yarışın reqlamentinə gəlincə, 30, 34, 38, 42, 46, 50, 55, 60 və 66+ kq çəki dərəcələrində mübarizə aparan idmançılar arasında qaliblər olimpiya sisteminə uyğun olaraq müəyyənləşdirilib. Sonda turnirin qaliblərinə federasiya və nazirlik tərəfindən diplom və qiymətli hədiyyələr verilib.

Dünən tədbirlər planına uyğun olaraq, daha bir birincilik Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası tərə-



findən keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edilən birincilikdə muxtar respublikanın bütün rayonlarından, ümumilikdə, 120-yə yaxın idmançı öz gücünü yarış zolaqlarında nümayiş etdirib. Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən birincilikdə yeniyetmələr 100, 200, 400, 800 və 1600 metr məsafəni qət etməklə finala birinci çatmağa çalışıblar. Yarışın qaliblərinə diplom və qiymətli hədiyyələr təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyası da muxtar respublika birinciliyi uğrunda yeniyetmə top sehrbazlarını bir araya toplayıb. Naxçıvan Türk Liseyinin idman zalında bu dəfə səbətə kimin daha çox top salacağına Naxçıvan şəhərinin və Babək rayonunun komandaları aydınlıq gətiriblər. Tədbiri giriş sözü ilə açan federasiyanın sədr müavini Ənvər Məmmədov bayramı münasibətilə bütün yarış iştirakçılarını təbrik edib və onlara uğurlar arzulayıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edilən görüşdə Naxçıvan komandasının basketbolçuları daha sərrast “atıcılığa” malik olduqlarını sərgiləyiblər. Onlar Babək komandasını 71:63 hesabı ilə



məğlub edərək qalib adını qazanıblar. Görüşdən sonra fərqlənən idmançılara diplom və hədiyyələr təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

*Yeni nəşrlər*

# “Tanrıçılıq və əbədi həyat məsələsi” adı ilə çapdan çıxan elmi əsər həm də tərbiyəvi səciyyə daşıyır

***Elmin də bir əxlaqı olmalıdır. O zaman ki, elm həqiqi mənəviyyata, həqiqətə və saflığa dayanır, quru bilgilər toplusu olmaqdan çıxır, yaradılan digər varlıqlardan mənəviyyatının varlığına görə fərqlənən insanın mənəvisinin yüksəlməsinə xidmət edir. Kitabxanama yenicə daxil olmuş “Tanrıçılıq və əbədi həyat məsələsi” adlı kitabdan çıxardığım nəticə budur. AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadənin AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 18 noyabr 2013-cü il tarixli qərarı ilə nəşr olunmuş yeni kitabı haqqında yazmağa o zaman qərar verdim ki, yazmaq üçün saya-hesaba gəlməyən tutarlı səbəblər müəyyənləşdirdim.***




İlk növbədə, insanın üstün yaşama qayəsini izah edən kitabın ölkəmizdə barmaqla sayıla biləcək qədər analoji mövzulu kitablardan olması bu kitab haqqında yazmaq üçün ilk səbəbdir. Çünki gerçək dini izah edən kitabın Azərbaycan mənəviyyatına, azərbaycanlı kimliyinə xidmət etdiyi şəksizdir. Bizcə, bu monoqrafiya hər birimizin özünü dərk etməsi üçün oxumalı olduğumuz bir əsərdir.

İkinci tərəfdən, İslam dininin müjdəçisi, bəşər tarixinin ən ali məramlı şəxsiyyətlərindən biri olan Məhəmməd Peyğəmbərin “İnsanlarla anlayacaqları şəkildə danışın...” kəlamının tələbinə uyğun olaraq yazılması əsərin hamı tərəfindən qavranılmasına xidmət edir.

Üçüncü tərəfdən, kitab bir çox “diletant tədqiqatlar”dan fərqli olaraq, ciddi tədqiqat əsəri səviyyəsindədir. Kitabın müəllifi xalqımızın mənəvi dəyərlərinin öyrənilməsi ilə bağlı uzun müddət tədqiqat aparmış, təkcə Naxçıvanın deyil, ümumilikdə, Azərbaycanın və türk dünyasının etnoqrafiyası ilə bağlı söz deməyə tam mənəvi haqqı olan alimdir.

Tədqiqat əsəri “Türklərdə tanrıçılıq məsələsi”nin izahı ilə başlayır. Bu hissədə son illərdə elm aləmində xüsusilə müzakirə predmetinə çevrilmiş qədim türklərin dini baxışları ilə bağlı məsələyə aydınlıq gətirilir. Özünəqədərki tədqiqatçıların “türk dini şamanizmdir, yoxsa tanrıçılıq?” sualına verdikləri cavablara işıq tutan müəllif əsaslı dəlillərlə bir elmi nəticəyə gəlir: şamanizm din deyil və türklər heç bir zaman “şaman dini” adlanan bir dinə sitayiş etməmişlər, türklərin əski dini təktanrıçılıq olmuşdur. Müəllif haqlı olaraq qeyd edir ki, XIX əsrin ikinci yarısında başlayaraq bir sıra rus və Avropa tədqiqatçılarının qədim türklərdə şamanizm inancının geniş yayıldığını, hətta din səviyyəsinə qaldırıldığını “sübut” etməkdə məqsədləri türklərin ibtidai inamlar səviyyəsində yaşadıqlarını göstərmək olmuşdur. Onlar isbatlamağa çalışmışlar ki, türklər təkallahlılıq ideyası ilə tanış olmamış, bu proses türklərdə xristianlaşma və islamlaşma ilə baş vermişdir. Müəllif müxtəlif türk xalqlarının, o cümlədən Azərbaycan xalqının əski dini inanc sistemindən bəhs edir, Naxçıvanda əldə edilən materialları da tədqiqata cəlb etməklə göstərir ki, türklər təktanrıçılığı qəbul etmiş ilk xalqlardan biridir. Məhz bunun təsiridir ki, sonralar səmavi dinlər, xüsusən İslam dini onlar arasında sürətlə yayılmaqla dünya türklərinin əksəriyyəti tərəfindən qəbul edilmişdir. Kitabda əsaslı dəlillər göstərilməklə sübut edilir ki, hələ İslamaqədərki dövrlərdə Naxçıvan da daxil olmaqla, ətraf coğrafiyada aparıcı etnos türklər olmuşlar. Müəllif yuxarıdakı fikirləri irəli sürərkən ciddi elmi-tədqiqat əsərlərinə, “Tövrat”a, “İncil”ə, “Quran”a, “Kitabi-Dədə Qorqud” dastanlarına, oğuznamələrə əsaslanır.

“Mənəvi dünyamızda ruh-bədən, can-canan, ruhi-Rəhman münasibətləri, qarşılıqlı paralellər” adlanan bölümdə ruh və yaradılış, insanın yaşamı bədən və ruhun vəhdəti kimi əbədi varlıq məsələsinə aid baxışlar ortaya qoyulmuşdur. Ruh və yaradılış məsələləri izah olunarkən əski türk inanc sistemi ilə “Qurani-Kərim” arasında paralellər aparılmış, Nəsimi, Nizami, Yunus İmrə, Hüseyn Cavid və başqa mütəfəkkirlərin əsərlərindən mövzu ilə bağlı nümunələr gətirilmişdir.

Ölməmişdən öncə ölməyi bacarmaq, əslində, əbədi var olmağın sirridir. Müəllif bu fikri irəli sürərək insanın doğulub ölməsinə, ölüb dirilməsinə qədər keçdiyi böyük yoldan bəhs etmişdir.

Kitabda Yereşkiqal, Yerlik, Fələk, Əzraillə bağlı inancların genezisinə dair aparılmış əsaslı tədqiqatlar xüsusilə maraq doğurur.

Əsərin dördüncü bölümü “Qədim inanclar sistemində, dinlər tarixində və xalq yaradıcılığında ölümsüzlük məsələsi” adlanır. Bu bölümdə əbədi həyat, Xızır Peyğəmbər haqqında verilən məlumatlar, xalq yaradıcılığında, mənəvi dəyərlər sistemimizdə bu mövzuya yanaşma ətraflı bir şəkildə təhlil edilmişdir.

Ümumilikdə, monoqrafiyada tanrıçılıq, yaradılış, ruh-bədən münasibətləri, əbədi həyat uğrunda mübarizə ilə bağlı məsələlər, problemin dünyəviliyi, İslam düşüncə tərzində yeri, ümumtürk cəhətləri, şumerlər və digər türk xalqları ilə genetik bağları araşdırılmışdır. Xalqımızın mənəvi mədəniyyəti, dünyaya baxışı, inamlar sistemi, dini, etnik-mədəni əlaqələri ilə maraqlanan geniş oxucu kütləsi üçün faydalı olan kitabın üz qabığında Gəmiqayada eramızdan əvvəl IV-III minilliyə aid olduğu ehtimal edilən “Tanrıya açılmış əllər” və Bilgə xaqanın məzar daşının təsviri əks olunmuşdur. Bu isə, öz növbəsində, monoqrafiyanın məzmunu ilə birbaşa vəhdət təşkil edir və kitabda əks olunan fikirlərin açılmasına xidmət edir.

**E.KƏLBİZADƏ**

***Mart ayının 1-dən etibarən muxtar respublikamızda uşaqların sağlamlığına xidmət edən bütün səhiyyə müəssisələrində uşaqların icbari tibbi müayinələrinə start verilmişdir.***

Qeyd olunmuşdur ki, son illər uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi avadanlıq və ləvazimatlarla təchiz edil-

# Uşaqların icbari dispanserizasiyasına start verilib

Bu məqsədlə Ə.Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında keçirilən tədbirdə xəstəxananın baş həkimi Rəhim Rəhimov uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışmış, uşaqların icbari dispanserizasiyasını həmin işlərin məntiqi davamı kimi dəyərləndirmişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi xidmətin təşkili şöbəsinin baş məsləhətçi-pediatrı İbrahim Ağayev bildirmişdir ki, dispanserizasiyanın uşaqları (0-18 yaş) tam əhatə etməsi, uşaqlara sağlamlaşdırıcı tədbirlərin daha effektli və müasir tələblərə uyğun aparılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Əsasnaməsində dəyişiklik edilməsi barədə 2013-cü il 4 oktyabr tarixli Fərman imzalamışdır. İcbari dispanserizasiyanın aparılmasında əsas məqsəd uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi, uşaqlar arasında xəstələnmə, əlillik və ölümün səviyyəsinin daha da azaldılması, uşaqların xəstəliklərdən qorunmasıdır.

məsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və digər tədbirlər muxtar respublikada uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına imkan vermişdir. Həyata keçirilən bütün bu tədbirlər nəticəsində uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur.

Bildirilmişdir ki, icbari dispanserizasiyanın səmərəli təşkili üçün muxtar respublikanın bütün rayonlarında seminar-məşğələlər keçirilmiş, bu tədbirlərdə iştirak edən rayon mərkəzi xəstəxanalarının pediatrları, sahə tibb bacıları, kənd həkim ambulatoriyaları və feldşer-mama məntəqələri işçilərinin sualları cavablandırılmışdır.

Sonra uşaqlar tibbi müayinələrdən keçirilərək müvafiq təyinatlar verilmişdir. Xəstəxanaya gəlmək imkanı olmayan uşaqların müayinə və dispanserizasiyası isə xüsusi həkim briqadası tərəfindən həyata keçirilir. Valideynlər bu tədbiri uşaqların sağlamlığına göstərilən dövlət qayğısı kimi dəyərləndirərək öz minnətdarlıqlarını bildirmişlər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 8/32A-da yaşayan Quliyeva Yeganə Arif qızının adına verilmiş 104013000062 reyestr nömrəli çıxarış və 000062 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

* * *

Quliyev Şərafət Qadir oğlunun adına olan JN-102A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Murtuzov Əşrəf Hüseyn oğlunun adına olan JN-358A inventar nömrəli, 10304005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Ağasiyev Nizami Rəsul oğlunun adına olan gizirin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Orucəliyev Əbil Nəsrulla oğlunun adına Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 0006020 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin kollektivi iş yoldaşları Məhsəti Əliyevaya, atası **DAĞISTANIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin Təchizat şöbəsinin müdiri **DAĞISTAN ƏLİYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

“Naxçıvanpoçt” MMC-nin Çeşidləmə və mətbuat yayımı şöbəsinin işçiləri iş yoldaşları Elşən və Mətanət Əsgərovlara, əzizləri **BAYRAMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Naxçıvanpoçt” MMC-nin Bağlama və çeşidləmə şöbəsinin işçiləri iş yoldaşları Elşən və Mətanət Əsgərovlara, əzizləri **BAYRAMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Elnur Kəlbizadə**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 239**